Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası
İctimai Birliyinin İdarə Heyətinin 20 dekabr 2022-ci il tarixli
005/İH nömrəli iclasının protokolu ilə təsdiq edilib.

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası
İctimai Birliyinin İdarə Heyətinin 03 mart 2025-ci il tarixli
012/İH nömrəli iclasının protokolu ilə redaktə edilib.

**“Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası”**

**İctimai Birliyinin Üzvlərlə iş**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. “Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası” İctimai Birliyinin Üzvlərlə iş Qaydaları” (bundan sonra – Qaydalar) “Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası” İctimai Birliyinin (bundan sonra – AKTA) üzvlüyünə seçilmək üçün tələbləri, meyarları, prosedurları, üzvlərin hüquqları, vəzifələri və üzvlüyə xitam verilməsi əsaslarını, üzvlük haqlarının miqdarı, ödənilməsi və rəsmiləşdirilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalar AKTA-nın Nizamnaməsinin müvafiq bəndlərinə uyğun hazırlanmışdır.

1.3. Bu Qaydalar AKTA-nın İdarə Heyəti tərəfindən təsdiq olunur və dəyişdirilir.

1.4. Bu Qaydaların ən son təsdiq edilmiş nüsxəsi AKTA-nın rəsmi internet səhifəsində yerləşdirilir və üzvlüyə müraciət edənlər üçün əsas hesab olunur.

1.5. Bu Qaydalar həm hüquqi, həm də fiziki üzvlərə şamil olunur.

1.6. Bu Qaydalara aşağıdakı sənədlər əlavə olunur:

1.6.1. “Üzvlük müqaviləsi” (Əlavə 1).

1.6.2. “Üzvlük kateqoriyaları və üstünlüklər” (Əlavə 2);

## 2. AKTA üzvlərinin növləri, seçim meyarları və tələblər

2.1. Bu qaydalarda göstərilən seçim meyarlarına uyğun hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları istisna olmaqla) AKTA üzvlüyünə müraciət edə bilər.

2.2. AKTA üzvlərinin aşağıdakı növləri mövcuddur:

2.2.1. Hüquqi şəxs;

2.2.2. Fiziki şəxs.

2.3. AKTA üzvlüyünə aşağıdakı hüquqi şəxslər seçilə bilər:

2.3.1. Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş;

2.3.2. AKTA-nın fəaliyyət istiqamətlərinə müvafiq işlər görən (xidmətlər göstərən) və ya bu istiqamətlərdə ixtisaslaşmış.

2.4. AKTA üzvlüyünə aşağıdakı fiziki şəxslər seçilə bilər:

2.4.1. yaşı 18-dən yuxarı olan  Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında yaşama və (və ya) işləmə icazəsi almış;

2.4.2. informasiya texnologiyaları, kompüter elmləri, kibertəhlükəsizlik və (və ya) əlaqəli sahələr üzrə bakalavr səviyyəsi üzrə ali təhsil və (və ya) magistr və daha yuxarı dərəcəli təhsil və (və ya) nüfuzlu beynəlxalq sertifikat (başlanğıc səviyyə üzrə sertifikat(lar) istisna) əldə etmiş;

2.4.3. informasiya texnologiyaları, kompüter elmləri, kibertəhlükəsizlik və (və ya) əlaqəli sahələr üzrə minimum 5 il iş təcrübəsi və ya rəhbər vəzifəsi üzrə minimum 3 il iş təcrübəsi;

2.4.4. AKTA-nın üzvlüyünə qəbul edilmiş fiziki şəxslər "AKTA eksperti" adlanır.

## 3. AKTA üzvlüyünə müraciət proseduru

3.1. Fiziki və hüquqi şəxs(lər) AKTA üzvlüyünə müraciət etmək üçün təşkilatın rəsmi veb səhifəsində qeydiyyatdan keçməli, özü və ya təmsil etdiyi hüquqi şəxs barədə (yalnız hüquqi şəxslər) məlumatları daxil etməli və müvafiq formanı dolduraraq üzvlük üçün ərizə ilə müraciət etməlidir;

3.2. Ərizəçi tərəfindən aşağıdakı sənədlər təqdim olunmalıdır:

3.2.1. hüquqi şəxslər - hüquqi şəxsin nizamnaməsi; qeydiyyat şəhadətnaməsi; dövlət qeydiyyat reyestrindən çıxarış, rəhbərinin və təmsilçisinin şəxsiyyət vəsiqəsi;

3.2.2. fiziki şəxslər - şəxsiyyət vəsiqəsi, təhsilə dair sənəd və ya müvafiq bilik və bacarıqları sübut edən digər sənədlər (sertifikat(lar) və s), və iş təcrübəsini sübut edən müvafiq sənədlər (arayış və s.).

3.3. Təqdim edilmiş məlumatlar və müraciətçinin seçim meyarlarına uyğunluğu AKTA-nın icra orqanı tərəfindən 15 iş günü ərzində yoxlanılır.

3.4. Təqdim edilmiş məlumatların dəqiqləşdirilməsi üçün AKTA-nın icra orqanı tərəfindən ərizəçi ilə əlaqə saxlanıla və əlavə məlumatlar və (və ya) sənədlər istənilə bilər.

3.5. İlkin yoxlama nəticəsində tələblər və seçim meyarlarına uyğun gələn şəxslərin müraciəti baxılması və müvafiq qərarın qəbul olunması üçün AKTA-nın İdarə Heyətinə təqdim olunur.

3.6. Müraciətin ilkin daxil olma tarixindən 30 iş günü ərzində (məlumatların əlavə yoxlanılması üçün sərf edilən vaxt nəzərə alınmadan) üzvlük müraciətinə dair AKTA İdarə Heyəti tərəfindən aşağıdakı qərarlardan biri qəbul edilir və ərizəçiyə müvafiq məlumat təqdim olunur:

3.6.1. AKTA üzvlüyünə qəbul olunma barədə qərar;

3.6.2. Ərizəçinin AKTA üzvlüyünə qəbul edilməməsi barədə qərar - bu halda imtinanın əsasları ərizəçiyə təqdim edilir.

3.7. AKTA üzvlüyünə qəbul edilmiş şəxslərə AKTA üzvlük vəsiqəsi və ya sertifikatı təqdim edilir.

3.8. AKTA üzvlüyünə qəbul edilməmiş şəxslər imtina üçün əsasları aradan qaldıraraq üzvlük üçün yenidən müraciət edə bilər.

3.9. Üzvlüyə qəbul edilmiş hüquqi və fiziki şəxslərlə 1 ay müddətində müqavilə (Əlavə 1) imzalanır.

## 4. AKTA üzvlərinin hüquqları və vəzifələri. AKTA üzvlüyünə xitam verilməsi üçün əsaslar

4.1. AKTA üzvləri öz aralarında bərabər hüquqlu olmaqla aşağıdakı hüquqlara malikdirlər:

4.1.1. AKTA-nın Nizamnaməsində, bu Qaydalarda və əlavə edilmiş digər sənədlərdə nəzərdə tutulmuş qaydada AKTA-nın idarəetmə orqanlarının fəaliyyətində iştirak etmək, seçmək və seçilmək;
4.1.2. Üzvlük kateqoriyasına uyğun olaraq, AKTA üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan istifadə etmək;
4.1.3. Üzvlük kateqoriyasına uyğun olaraq, AKTA-nın fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;
4.1.4. AKTA-nın idarəetmə orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;
4.1.5. öz mənafelərinin müdafiəsinə üçün AKTA-ya müraciət etmək;
4.1.6. öz hüquq və vəzifələri ilə bağlı məsələnin müzakirəsində şəxsən iştirak etmək.
4.2. AKTA üzvləri aşağıdakı vəzifələri yerinə yetirir:
4.2.1. AKTA-nın Nizamnaməsinə, həmçinin əxlaq və etika normalarına əməl etmək;
4.2.2. AKTA-nın idarəetmə orqanlarının qərarlarını yerinə yetirmək;
4.2.3. AKTA-nın Nizamnaməsinin tələblərinə riayət etmək;
4.2.4. AKTA-nın tədbirlərində iştirak etmək (üzrlü səbəblər olmadığı hallarda).
4.3. AKTA üzvlüyünə aşağıdakı hallarda xitam verilir:
4.3.1. şəxs könüllü olaraq üzvlükdən çıxdıqda;
4.3.2. şəxs Assosiasiyanın üzvlüyündən çıxarıldıqda.
4.4. AKTA üzvlüyündən çıxarılma təsisçilərin və ya İdarə Heyətinin qərarı ilə aşağıdakı hallarda həyata keçirilə bilər:
4.4.1. AKTA Nizamnaməsinin və ya bu Qaydaların tələblərinə zidd davranış müəyyən edildikdə;
4.4.2. Vəzifələrin icrasından qərəzli şəkildə yayınma halları aşkarlandıqda;
4.4.3. Üzvlük şərtlərinə uyğunsuzluq müəyyən edildikdə.

## 5. AKTA üzvlük kateqoriyaları, imtiyazlar, üzvlük haqlarının miqdarı və ödənilməsi qaydası

5.1. Fiziki və hüquqi şəxslər tərəfindən Qaydaların 2 nömrəli Əlavəsində təsbit olunmuş imtiyazlardan onların üzvlük kateqoriyasına müvafiq olaraq istifadə edilir.
5.2. Üzvlük haqlarının miqdarı aşağıdakı kateqoriyalara müvafiq qaydada müəyyən edilmişdir:
5.2.1. “Platin” kateqoriyası üzrə üzvlük – 10000 AZN (on min Azərbaycan manatı)
5.2.2. “Qızıl” kateqoriyası üzrə üzvlük – 3000 AZN (üç min Azərbaycan manatı)
5.2.3. “Gümüş” kateqoriyası üzrə üzvlük – 1000 AZN (min Azərbaycan manatı)
5.2.4. “Bürünc” kateqoriyası üzrə üzvlük – ödənişsiz (yalnız fiziki şəxslər üçün)
5.3. Üzvlük haqları üzvlərlə müqavilə imzalandıqdan bir ay ərzində nağdsız qaydada köçürmə yolu ilə AKTA-nın müvafiq hesabına ödənilir.